UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.4.294

**XALİDƏ MƏRDANOVA***

# H.XANMƏMMƏDOVUN TAR VƏ SİMFONİK ORKESTR ÜÇÜN I VƏ II KONSERTLƏRİNİN SPESİFİK CƏHƏTLƏRİ

*Azərbaycan musiqi mədəniyyəti özünəməxsus yaradıcılıq konsepsiyaları ilə çıxış edən bəstəkarların bu mədəniyyətə qazandırdığı nailiyyətlərlə daha zəngin irsi özündə ehtiva edir. Bu yaradıcılıq irsində hər bir bəstəkarın müxtəlif janrlarda yazdığı əsərlər unikaldır. H.Xanməmmədov yaradıcılığının milli siması ilə musiqi mədəniyyətinə əvəzsiz töhfələr bəxş etmiş bəstəkarlardandır. Onun konsert janrında yazdığı əsərlər ilk başda xalq çalğı alətlərinin kollektiv ifada səslənmə xüsusiyyətlərini mükəmməl şəkildə ifadə etmək imkanı qazandırdığı üçün əhəmiyyətlidir. Təqdim olunan məqalədə bəstəkarın bu sahədə bir "ilk"ə imza atdığı vurğulanır. Onun tar və simfonik orkestr üçün yazdığı ilk iki əsərin bəstəkarlıq üslubunun formalaşmasında əhəmiyyətindən bəhs edilir. Qeyd edilir ki, bəstəkar bu sahədə yaradıcılığının novator cəhətlərini ümumiləşdirmiş, klassik Avropa musiqisi janrında milli məzmunu ilə seçilən əsərlər yaratmışdır.*

*Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq musiqisindən yaradıcı şəkildə faydalanmaq H.Xanməmmədovun da yaradıcılığı üçün səciyyəvidir. O, konsert janrında yazdığı əsərlərdə də bunu yaradıcılığının əsas amili kimi diqqətə çatdırır. O, konsertlərinin formatəşkili problemlərinin həllini milli lad-məqam əsası, xalq musiqisi, aşıq musiqisinin ecazkar intonasiyaları ilə həll edir. H.Xanməmmədov mövzuları milli lad-məqamlar əsasında qurmaqla həm əsərlərinin milli mənsubluğunu vurğulayır, həm də klassik forma çərçivəsində milli lad-məqamların istifadə imkanlarını nəzərdən keçirir. Məqalədə bu xüsusi diqqətə çatdırılır, Azərbaycan musiqisinin unikallığını özündə birləşdirən xalq musiqisindən konsert janrında faydalanmağın əhəmiyyətindən bəhs edilir. Qeyd edilir ki, H.Xanməmədov bu janrda yazdığı ilk əsərlərdə fərdi bəstəkarlıq üslubunun özünəməxsusluğunu açır, yaradıcılıq konsepsiyasının mahiyyətinə diqqət çəkir. Vurğulanır ki, bəstəkarın ilk iki konserti onun yaradıcılığı üçün stimul olmuş, gələcəkdə bu janrda yazacağı əsərlərdə bəstəkarlıq üslubunun yenilənməsi və ideya məzmununun daha mükəmməl şəkildə ifadə olunmasını yetişdirmişdir.*

***Açar sözlər**: bəstəkar, konsert, janr, forma, milli, musiqi*

## Giriş

İtalyan dilindən tərcümədə harmoniya, razılaşma, latın dilində yarışmaq mənası verən konsert bir və ya bir neçə solo alətlə orkestr dialoquna əsaslanan musiqi janrıdır. Konsert janrında yazılan əsərlərin ilk maraqlı nümunələrinə İ.S.Bax, A.Vivaldi, G.Hendelin yaradıcılığında rast gəlmək mümkündür. Solo alət və orkestr partiyası üçün nəzərdə tutulmuş konsertlər forma və janr xüsusiyyətlərinə görə XVIII əsrin II yarısında Vyana klassiklərinin yaradıcılığında kristallaşmışdır. Konsert janrında sonata-simfonik silsilənin forması öz təsdiqini tapmışdır. Konsert əsərləri üç hissəni bir-biri ilə əlaqələndirir. Bu tip əsərlərdə dörd hissədən ibarət olan silsiləvi kompozisiyalardan fərqli olaraq III hissə, daha doğrusu çox vaxt ağır hissə əvəzinə silsiləyə daxil edilən menuet və ya skertsolar olmurdu.

## Əsas təhlil

Azərbaycanda bəstəkar yaradıcılığında konsert janrının forma, janr xüsusiyyətləri XX əsrin 30-cu illərindən sonra formalaşmağa başlayır. Bu dövr yeni yaradıcılıq mühiti, təmayüllərin meydana gəldiyi zəngin tarixi mərhələ idi. XX əsrin 30-cu illərində Ü.Hacıbəyli və silahdaşlarının simasında milli musiqi mədəniyyəti özünün inkiaşfında yeni mərhələyə daxil olduğundan klassik musiqinin bütün janrlarında milli məzmunlu əsərlərin yazılması zərurəti yaradıcılıq problemi kimi müəyyən olunmuşdu. Konsert janrında ilk əsərlər isə görkəmli bəstəkarlar F.Əmirov və Ə.Abbasovun yaradıcılığında özünə yer almağa başlayır. Lakin hələ 30-cu illərin sonunda Q.Qarayevin yazdığı "Sevinc poeması" əsəri fortepiano və orkestr dialoqunu nəzərdən keçirən ilk əsər kimi əhəmiyyətli idi. Bu haqda T.Seyidov yazır: "Çar kəndinin heykəli" əsərindən həmən sonra yazılan "Sevinc poeması" gənc müəllifin fortepiano və orkestr üçün iri həcmli əsər yazmaqda cəsur təşəbbüsü idi. Resenziyalar "Poema"nın parlaq, bayramsayağı, yüksək koloritindən, onda həmin dövr üçün səciyyəvi olan əhval-ruhiyyənin əks olunmasından bəhs edirdilər".[4. s16] Bu ilk təcrübə nümunəsində

təbii ki, bir sıra qüsurlar yox deyildi. Əsər belə bir çətin yaradıcılıq probleminin həlli üçün ilk təşəbbüs olduğundan əhəmiyyətli idi. Bununla yanaşı fortepiano ilə orkestri bir vəhdətdə birləşdirmək təcrübələrini təkmilləşdirməyə çalışan Q.Qarayev 1940-cı ildə fortepiano və orkestr üçün konsertinin I hissəsini yazır. Bu ilk təcrübə digər bəstəkarlar üçün də stimul olur ki, F.Əmrov və Ə.Abbasov instrumental konsert janrında yazılan ilk əsərlərin müəllifi kimi milli musiqi mədəniyyəti tarixinə düşürlər. F.Əmirov skripka, fortepiano və orkestr üçün ikili konsertini 1945-ci ildə, Ə.Abbasov fortepiano və simfonik orkestr üçün ilk konsertini 1947-ci ildə yazır. F.Əmorivun A.Babayevlə birgə yazdığı fortepiano və xalq çalğı alətləri üçün konserti ilk dəfə 1948-ci ildə səslənir. Həmin əsərlər milli musiqidə instrumental konsert janrının ilk nümunələri olur.

H.Xanməmmədovun yaradıcılığında konsert janrının xüsusi çəkisi var. Onun bu janrda yazdığı əsərləri digər konsertlərdən fərqləndirən mühüm cəhət bundan ibarətdir ki, H.Xanməmmədov misilsiz ifaçılıq imkanlarına malik Avropa mənşəli alətlər üçün deyil, xalq çalğı alətlərinin ifaçılıq imkanlarını orkestr səslənməsi ilə uyğunlaşdıran konsertlər yazır və bu əsərlərdə xalq çalğı alətlərini solo alət kimi təqdim edərək, onlarda virtioz ifaçılıq nümayiş etdirir. Bəstəkarın milli alətlər üçün konsertlərinin əhəmiyyətini vurğulayan Ü.Talıbzadə qeyd edir: "Şərq musiqi tarixində H.Xanməmmədov hər şeydən əvvəl xalq çalğı aləti olan tar ilə simfonik orkestr üçün ilk konsertin yaradıcısı kimi şöhrət qazanmışdır. Bir novator olaraq bəstəkar, qədim xalq çalğı aləltəri olan tarın, kamançanın səslənməsini müasir simfonik orkestrin əzəmətli qatları ilə uzlaşdırmış, konsert janrının yeni fərqli növünü yaratmışdır".[2. s641] Bu da qeyd edilməlidir ki, məhz I konsertində bəstəkar ilk dəfə milli musiqi alətinin ifaçılıq imkanları, muğam sənətinin ecazkarlığı və klassik musiqidə konsert janrının forma, janr xüsusiyyətlərinin üzvi şəkildə sintezinə nail olmağı bacarmışdır. Əsər görkəmli bəstəkar Q.Qarayev tərəfindən də yüksək qiymətləndirilmişdir. H.Xanməmmədov tar və orkestr üçün tam beş konsertə imza atmışdır. Bundan əlavə o, kamança və orkestr üçün, eyni zamanda arfa və orkestr üçün konsertlərin müəllifidir.

H.Xanməmmədovun bütün yaradıcılığı milli təfəkkürlə nəfəs alır. O, elə bəstəkarlardandır ki, milli musiqidə əsrlərlə öz təsdiqini tapmış ənənələrə sadiqlik ifadə edir. Bu sadiqlik milli musiqi, muğam intonasiyalarından məharətlə istifadə olunmaq, xalq musiqisinin əsaslarını peşəkar səviyyədə mənimsəmək nəticəsində əsərlərində bu musiqini bütün incəliyi ilə ifadə etmək ilə izah olunur. Bəstəkar milli musiqi alətləri üçün xalq musiqisi boyaları ilə dolğun unikal əsərlər yazmışdır. Onun yaradıcılığının əsas meyarı olan lirik təfəkkür, musiqili obrazların ifadəsində melodik zənginliklərə nail olmaq konsert janrında yazdığı əsərlərdə xüsusi qabarıqlıqla təcəssüm olunur. Bəstəkarın milli çalğı alətləri və orkestr səslənməsinin qarşılıqlı dialoqunu virtioz şəkildə nümayiş etdirən konsertlərində muğam elementləri bütün fakturanı dolğunlaşdıraraq, zəngin emosionallıq, parlaq musiqili ideya, çoxyönlü obrazlar dairəsinin təqdim olunmasında fəallıqla iştirak edir.

H.Xanməmmədov milli alətləri orkestr təfəkkürünə uyğunlaşdırmağı məqsədli şəkildə həyata keçirmişdir. Bu ilk növbədə milli alətlərdə ifaçılığın heç də hər hansı bir Avropa musiqi alətindən geri qalmadığını birmənalı şəkildə sübut edib, bu alətlərdə ifaçıların virtioz qabiliyyətini ifadə etmək imkanlarını diqqətə çatdırır. Hələ XX əsrin 40-cı illərində yazdığı xalq çalğı alətləri orkestri üçün "Neftçilər haqqında süita" əsərində H.Xanməmmədovun orkestr təfəkkürünün özünəməxsus cəhətləri diqqət cəlb edir. Bəstəkar xalq çalğı alətlərinin tembr çalarlarını süita kimi orijinal janrda sınamaqla konsert əsərlərinin faktura, formatəşkili problemlərinin həlli yolunda ilk zəmini hazırlayır. Bu, onun ümumilikdə milli alətlərdə kollektiv ifa xüsusiyyətlərini diqqətdən keçirmək istəyi ilə izah olunur. Bütün bunların nəticəsidir ki, H.Xanməmmədov1952-ci ildə konservatoriyanı bitirərkən tar və simfonik orkestr üçün I konsertini diplom işi olaraq təqdim edir. Konsert milli musiqi mədəniyyəti tarixində xalq çalğı alətləri arasında özünəməxsusluğu ilə seçilən tar ilə simfonik təfəkkürü bir vəhdətdə birləşdirən ilk iri həcmli əsərlərdən biri kimi səciyyələnir. H.Xanməmmədov ilk konsertini konservatoriyada müəllimi olan, milli musiqidə ikinci bəstəkarlıq məktəbinin yaradıcısı Q.Qarayevin məsləhəti və dəstəyi ilə yazır. I konsert ilk dəfə 26 iyun 1952-ci ildə səslənərək müəllifinə böyük uğur qazandırır. Daha sonra isə Almaniya Demokratik Respublikasının konsert zallarında ifa olunan bu əsər H.Xanməmmədovun yaradıcılıq nailiyyətlərinin ən gözəl tərəflərini özündə birləşdirir. Konsertin ilk ifasında solo tar partiyasını görkəmli sənətkar Əhsən Dadaşov ifa edir, Əhəd İsrafilzadə dirijor kimi çıxış edir. Solo partiyanı məharətlə ifa etdiyi üçün Ə.Dadaşov Beynəlxalq

Müsabiqələr laureatı ünvanını qazanır. Əsərin ilk ifası ona daha peşəkar musiqi kollektvlərinin müaricəti ilə nəticələnib. Konsert uzun illər Niyazinin rəhbərliyi ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin repretuarında daimi yerini alıb və hər dəfə özünün möhtəşəmliyi ilə dinləyiciləri valeh edib.

Konsert və müxtəlif janrlarda olan digər əsərlər H.Xanməmmədovun yaradıcılığının novator xüsusiyyətlərini nümayiş etdirərək, bəstəkarın daimi xarakter alan yaradıcılıq axtarışlarının nəticəsi kimi ortaya çıxmışdır. Ümumiyyətlə, H.Xanməmmədovun tar və orkestr üçün konsertlərinin əhəmiyyətini vurğulayan Ü.Talıbzadə qeyd edir: "Bəstəkar xüsusi səy və ciddiliklə, məsuliyyətlə klassik konsert janrının əsaslarını, müasir musiqi ifadə vasitələri sistemini, yazı üsullarını mənimsəmiş, dünya musiqi sənəti ənənələrinə dayanaraq zəngin milli çalarlara və məzmuna malik əsərlər yaratmışdır. Bəstəkarın konsert yaradıcılığının əsas xüsusiyyətləri-folklorla sıx bağlılıq, milli ənənələrin klassik janr və formalarla üzvi, qarşılıqlı əlaqəsidir". [2. s 655]

Təbii ki, mayası xalq musiqisi ilə yoğrulmuş təfəkkür H.Xanməmmədovun yaradıcılıq yolunun istiqamətini müəyyən edən ən mühüm amillərdən biri kimi onun konsert əsərlərindən də yan keçə bilməzdi. Bu istiqamətdən çıxış edən bəstəkar tar üçün I konsertində milli koloriti daha da qabardır, xalq musiqisi intonasiyalarından peşəkar səviyyədə bəhrələnir. O, bu musiqinin ritmik cəhətləri, intonasiya xüsusiyyətlərinin əlvan çalarlarını fakturada bütün incəliyi, eyni zamanda əzəməti ilə ifadə etməyə nail olmuşdur. I konsertdə bəstəkar üslubunun orijinallığı tar və orkestr partiyasının birgə vəhdətini parlaq ifadəliliklə təqdim edir. Bu mövzuların da parlaqlığını yetişdirib, bütün əsəri zəngin çalarlarla dolğunlaşdırır. H.Xanməmmədov hissələrin quruluşunda ənənəvi formalara müraciət edir. Lakin bu zaman mövzuları milli lad-məqam ünsürlərinə tabe etdirir. Belə ki, I hissədən əsas mövzunun "Şur", II hissədən "Segah", finalda "Rast" məqamına əsaslanması vahid kompozisiyada çoxşaxəli və milli obrazlar dairəsini yaratmaq, təqdim etmək imkanını ortaya qoymuşdur. Bəstəkar bununla da kifayətlənmir. Metro-ritmik cəhətlərdə milli rəqslərdə tez-tez təsadüf olunan 6/8 ölçüsündən istifadə olunması, onun müxtəlif məqamlarda 3/4 ölçüsü ilə əvəz edilməsi obrazlar dairəsinin fərqli xarakterdə canlandırılmasında əhəmiyyətli nüans kimi diqqət cəlb edir. Bununla yanaşı klassik ənənələrə də böyük əhəmiyyət verən H.Xanməmmədov major-minor əlaqəsi vasitəsilə ideya məzmununu dolğunlaşdırmışdır. Konsertdə milli musiqi ünsürləri ilə milli ruh, əhval-ruhiyyə təcəssüm etdirən bəstəkar bütün mövzularda parlaq ifadəlilik ortaya qoymuşdur. O, eyni zamanda konsertə əsl xalq mahnıları daxil edib. I konsertdə milliliyin səciyyələnməsində melodik çalarlarda özünü hiss etdirən xalq mahnısı intonasiyalarının olduqca böyük əhəmiyyəti var. I hissədə "Kəklik" xalq mahnısının intonasiyalarının tar partiyasında eşidilməsi buna ən bariz nümunədir. Bu, kompozisiyada lirik duyğular meydana gətirir. Digər tərəfdən III hissədə "Qaytağı" rəqsinin intonasiyaları bölməyə milli hisslər aşılayıb, bütün hissənin özünəməxsus pafosla dolğunlaşmasını təmin edib. Bu, eyni zamanda finalın bayram əhval-ruhiyyəsinin müəyyən olunmağında əhəmiyyətli element kimi yadda qalır.

H.Xanməmədov tar və orkestr üçün I konsertində musiqi dilinin zənginlikləri ilə maraqlı kompozisiya qurmuşdur. Burada klassik harmoniyanın bütün özünəməxsusluğu milli lad-məqam çalarları ilə işlənilir. Məzmunun inkişafında çoxsəsli hüceyrələr ümumi ifadəlik və xoş ahəngdarlıq yaradır. Konsertdə solo alətlə orkestr həqiqi mənada bir-biri ilə dialoqa girir. Onların partiyası hərəsi öz növbəsində virtioz ifaçılıq nümayiş etdirir. Solo alət və orkestr partiyalarının funksiyalarının bərabər bölünməsi onlara sərbəst ifadə tərzi aşılayıb, hər ikisinin inkişafda bərabər olaraq əhəmiyyətli rol oynamağını təmin edib. Hər iki partiya sona qədər bir-biri ilə vəhdət təşkil edərək, eyni hüquqlu funksiyanı icra edirlər. Orkestr çalarlarında bütün alət qruplarının fəallığı da maraqlıdır. Bura daxil olan bütün alətlər ümumi dramaturgiyaya rəngli elementlər daxil edir. Bəzən belə bir təəssürat yaranır ki, bütün alətlər solo olaraq təqdim olunur. Bəstəkar buna məqsədyönlü nail olur. Ayrı-ayrı alət qrupları tar ilə sanki növbəli şəkildə dialoq quraraq, obrazların zəngin xarakterini bir daha vurğulayır. Tar və taxta nəfəslilərin çıxışı isə xüsusi həmahənglik ortaya qoyur. Bütün kompozisiyanın bir vəhdətdə birləşməsi mövzuların xarakter etibarilə yaxın olmağı ilə izah olunur. İnkişafda xalq musiqisi üçün səciyyəvi olan bir sıra cəhətlər özünü hiss etdirir. Musiqi materialı daim inkişaf edərək, tar və orkestr partiyalarının unikallığını yetirir. Tar partiyası üçün geniş diapazonlu inkişaf xarakterikdir. O, gah melodik incəliklə nümayiş olunan lirika təcəssüm etdirir, gah da ümumi inkişafı daha emosional əhval-ruhiyyəyə bürüyür. Bu zaman isə texniki imkanların təcəssümünə şərait yaranır. Tar partiyası fakturada da

rəngli çalarlarla ifadə olunub. Bütün hissələrin mövzularında variantlılıq fakturanın yenilənməsini təmin edir. Tar alətinin virtiozluğu I hissənin kadensiya bölməsində mükəmməl şəkildə təcəssüm etdirilir. Akkord münasibətində kvarta-kvinta əlaqəsinə əsaslanılması səslənmədə aşıq musiqisi intonasiyalarının meydana gəlməyi ilə nəticələnir. Bəstəkar xalq yaardıcılığı, folklor musiqisi elementləri ilə tar partiyasının daha da inkişaflı təqdiminə nail olur.

H.Xanməmmədovun xalq musiqisi və klassik formalara münasibəti I konsertinin forma xüsusiyyətlərində qabarıq şəkildə ifadə olunur. İlk növbədə bəstəkarın ənənəvi olaraq konserti üç hissədən ibarət virtioz xarakterli əsər kimi işləməsi, daha sonra milli muğamlardan məharətlə faydalanması, xalq mahnıları və ya aşıq musiqisi intonasiyalarından bəhrələnməsi milli bəstəkarlıq məktəbinin hər bir nümayəndəsinin yaradıcılığı üçün səciyyəvidir. Lakin H.Xanməmmədov I konsertində bunu fərdi yaradıcılıq imkanları, bəstəkarlıq üslubunun nailiyyətləri ilə diqqətə çatdırır. O, klassik Avropa musiqisi qanunauyğunluqlarını dəqiqliklə nəzərdən keçirərək, milli məzmunlu orijinal musiqili təfsir yaradır və ilk iri həcmli əsərində yaradıcılıq təfəkkürünün genişliyini nümayiş etdirir.

Bu da qeyd edilməlidir ki, H.Xanməmmədovun tar və simfonik orkestr üçün I konserti milli musiqidə konsert janrının ilk nümunəsi olmasa da, xalq çalğı aləti ilə simfonik təfəkkürün qovuşdurulmasında bir ilkdir. Bu, milli musiqidə yeni janr xüsusiyyətlərini formalaşdırıb, konsert janrının inkişaf perspektivliyini nəzərə çarpdırır. Əsər dövrün görkəmli musiqi xadimləri tərəfindən də yüksək qiymətləndirilmişdir. Tsadüfi deyil ki, Q.Qarayevin I konsertə verdiyi qiyməti R.Zöhrabov dahi bəstəkarın dilindən belə şərh edir: “Bu əsərin mühüm əhəmiyyəti ondadır ki, Şərqin ən populyar aləti olan tar ilk dəfə böyük simfonik orkestrin müşayiətilə əsas aparıcı kimi çıxış edir. Tara mənsub olan mürəkkəb partiyada qədim Azərbaycan xalq çalğı alətinin orijinal ifa xüsusiyyətləri, tembri və bütün imkanları qabarıq şəkildə özünü büruzə verir.”[3. s59]

H.Xanməmmədovun tar və simfonik orkestr üçün I və II konsertlərini müəyyən zaman kəsiyi bir-birindən ayırır. O, II konsertində yenidən fərdi yolundan çıxış edib, ilk konsertində izlədiyi yaradıcılıq konsepsiyasını daha mükəmməl şəkildə təqdim edir. II konsertdə formatəşkili problemlərə yaradıcı şəkildə yanaşaraq, onları daha səmərəli ifadə imkanları ilə həll edən bəstəkar üslubunun özünəməxsusluğunu daha peşəkar səviyyədə nümayiş etdirir. II konsert ithaf xarakterli olub, milli ifaçılıq sənətində əhəmiyyətli yeri olan tarzən Hacı Məmmədova həsr edilmişdir. Moskvada Sütunlu Sarayda Əhsən Dadaşovun solo ifası ilə möhtəşəm uğura imza atan konsert müəllifinə böyük müvəffəqiyyət qazandırmışdır. Əsərdə bəstəkar yanaşmasının unikallığı diqqət cəlb edir. Maraqlıdır ki, xalq musiqisi intonasiyaları vasitəsilə konsertdəki milli çalarları diqqətə çatdıran H.Xanməmmədov janrın şərhinə müasirlik prizmasından yanaşaraq, dövrü üçün xarakterik olan cəhətlər, həyati reallıqları musiqili təfsirdə ifadə etmiş və bütün kompozisiyanı nikbin tonlarla dolğunlaşdıraraq xalq həyatının özünəməxsus rəngarəngliyini təcəssüm etdirmişdir. Buna o, milli rəqs və mahnılarından məharətlə istifadə etməklə nail olmuşdur. Bütün əsər başdan sona xalq musiqisinin bu ecazkar janrlarının intonasiyaları ilə nəfəs alır.

H.Xanməmmədovun II konserti lirik lövhə olsa da, musiqili şərhdə dramatik məqamlar da müəyyən mənada yer alır. Bu inkişafa daha emosional xarakter aşılayıb, hissələrin mövzuları arasında bir qədər gərgin fərqliliyi ortaya qoyur. Ən mühüm məqam isə bu konsertdə H.Xanməmədov hər iki partiyanı məharətlə bir-birinə qarşı qoyur. Bu haqda R.Zöhrabov yazır: “ I saylı Konsertdə olduğu kimi, bu əsərdə də janrın texniki imkanları, orkestr və tar partiyalarının ustalıqla qarşılaşdırılması, ən başlıcası isə musiqi materialının simfonikləşdirilməsi öz təcəssumünü tapır”.[3. s60]

Ənənəvi olaraq II konsertin quruluşunu üçhissəli kompozisiya olaraq müəyyən edən bəstəkar bu baxımdan klassik musiqi üçün səciyyəvi olan forma xüsusiyyətlərindən faydalanmışdır. Konsertin Allegro olan I hissəsi sonata-allegro formasında Lya minorda, II hissə do minor tonallığında olub, Qrave olaraq ağır tempdə və üçhissəli formada, III hissə yenə Allegro olub, lya minor tonallığında rondo formasında yazılıb. Əsərdə kadensiya və koda bölmələrinin mövcudluğu onun klassik konsertlərə xas forma xüsusiyyətlərini bir daha vurğulayır. İlk hissədə lirik və dramatik əhval-ruhiyyə özünəməxsus intonasiya ilə inkişafı başlayır. Sonata-allegro formasının elementləri öz başlanğıcını məhz bu hissədən götürür. O, Allegro tepmində təqdim olunaraq yüksək dinamikanın müşaiyəti ilə orkestr partiyasının iki xanəni əhatə edən giriş mövzusu ilə başlayır. Burada fakturanı əhatə edən akkordlar kvarta-kvinta əlaqəsinə əsaslanır və aşıq musiqisi

harmoniyasının özünəməxsusluğu ilə işlənilir. Əsas mövzu lya mayəli “Şur” ladı üzərində qurulub. O, dinamikdir. Əsas mövzunun inkişafında solo tar partiyası daha fəal çıxış edir. Əsas mövzuda çox sayda bəzək işarələrindən istifadə olunması onun milli xarakterini müəyyən edir. Bu mövzu özünün inkişafında solo alət ilə orkestr partiyasının möhtəşəm dialoqunu yetişdirir. Mövzu sadə ikihissəli formada yazılıb. Köməkçi mövzu xarakter, tonal münasibət, temp baxımından əsas mövzu ilə ziddiyyət təşkil edir. Bu ziddiyyət mövzunun lirik əhval-ruhiyyəsi ilə də izah edilir. Mövzunun əsasını “Bayatı-Şiraz” məqamı təşkil edir, major-minor əlaqəsinə görə isə o, fa minor tonallığında yazılıb. Burada 6/8 metrik ölçüdən istifadə edən bəstəkar mövzunun rəqs xarakterdə olmağını bir daha təsdiqləyir ki, bu ölçü də milli rəqslər üçün səciyyəvidir. Mövzunun inkişafında ölçü 9/8 olaraq dəyişilir. Köməkçi mövzu üç bölmədən ibarətdir. Onun orta bölməsi “Şikəsteyi-Fars”ın intonasiyaları ilə dolğunlaşdırılır.

Tar və orkestr üçün II konsertin işləmə bölməsində mövzular bir-biri ilə qarşı-qarşıya gələrək böyük ziddiyyət yaradır. Bu təzadlıqda tonal baxımından ziddiyyət diqqətəlayiqdir. Belə bir konseptual həll işlənmə bölməsində dramtizmi daha da qüvvətləndirir. İşlənmədə mövzuların inkişafında sol mayəli “Bayatı-Şiraz” ladının intonasiyaları eşidilir. Bəstəkar epizodları improvizasiya imkanları ilə canlandırır. Konsertin II hissəsi lirik xarakterdədir. Onun bu əhval-ruhiyyəsi digər hissələrə ziddir. İnkişafda lirik kədər daha da tutqunlaşdırılır. Son hissə olan final gərginliyi yetişdirib, həyəcanlı inkişafı ilə bütün kompozisiyanı yekunlaşdırır.

II konsertdə diqqət çəkən mühüm məqamlardan biri bəstəkar tərəfindən solo alət kimi təqdim edilən tar alətinin virtioz ifa imkanlarının bütün parlaqlığı ilə açılmasıdır. Burada milli xüsusiyyətləri bir daha lad-məqam əsası vasitəsilə diqqətə çatdıran bəstəkar konsert janrında yazılmış əsərdə milli musiqin elementlərinin möhtəşəmliyini vurğulayır. Xalq musiqisinin metro-ritmik xüsusiyyətlərindən istifadə edən H.Xanməmmədov bu mənada da milli cəhətləri qeyd etməyə nail olur. Bu haqda Ü.Talıbzadə qeyd edir: “Əsərin milli qaynaqlar zəminində yaradılması özünü xalq melodiyalarına yaxın musiqi mövzularının, xalq musiqisinə xas olan lad-məqam, metroritm, musiqi materialının inkişaf prinsiplərinin istifadəsində göstərir”. [2. s660]

H.Xanməmmədovun tar və simfonik orkestr üçün konsertləri bir tək doğma vətəndə deyil, eyni zamanda müxtəlif ölkələrdə səslənərək müəllifinin tanınmasına səbəb olmuşlar. Bu ölkələr arasında Özbəkistan, Qazağıstan, Tacikistan, Gürcüstan da var. II konsert Özbəkistanda dütar alətində ifa üçün transpozisiya edilərək, bu alətlə simfonik orkestrin mükəmməl dueti ilə təqdim edilmişdir. Bu müvəffəqiyyətlər bəstəkara xalq çalğı alətləri və simonik orkestr üçün konsert janrında əsər yazmaqda stimul olmuşdur. O, sonra tar üçün daha üç, kamança və simfonik orkestr, arfa və simfonik orkestr üçün yazdığı konsertlərdə tar və simfonik orkestr üçün ilk iki əsərdəki yaradıcılıq konsepsiyasının davamını gətirmişdir. Bəstəkarın tar üçün konsertlərinin milli ifaçılıq sənətində əhəmiyyətini vurğulayan Ə.Ələkbərov yazır: “Müasir tar ifaçılıq sənətini, xüsusən də tarda not ifaçılıq sənətinin inkiaşfında bəstəkar H.Xanməmmədovun əsərlərinin çox böyük rolu olması şəksizdir. O, yazdığı konsertlərində tarın bütün bədii və texniki imkanlarının qabardılmasına nail olmuşdur”.[1. s56]

**Nəticə**

Beləliklə, H.Xanməmmədov hələ tələbəlik illərində tar və simfonik orkestr üçün yazdığı ilk konsertinin yaradıcılıq ənənələrini II konsertində daha da inkikşaf etdirmişdir. O, hər iki əsərində Avropa klassik musiqisinin forma, janr xüsusiyyətləri ilə milli musiqinin qanunauyğunlqlarını məharətlə sintez etmiş, melodik çalarlarda xalq musiqisi, muğam intonasiyaları vasitəsilə mükəmməl kompozisiya qurmuşdur. Onun bu sahədə nümayiş etdirdiyi yaradıcılıq nailiyyətləri novator xüsusiyyəti ilə diqqət cəkib, milli musiqidə janr rəngarəngliyini yetişdirmişdir. H.Xanməmmədovun ilk iki konsertinin əsas səciyyəvi cəhətləri Avropa klassik musiqisinin forma, janr xüsusiyyətləri çərçivəsində milli təfəkkürü ifadə etməkdir. Bu zaman o yaradıcılıqda cəsarətli addım ataraq, xalq musiqisi, muğam, aşıq musiqisi və harmoniyasını klassik janrda təcrübədən keçirmişdir. Bəstəkarın konsert janrında yazdığı əsərləri digər bəstəkarların da yaradıcılığında janrın milli məzmununu müəyən etmiş, onların yazdığı misilsiz musiqili təfsirlər milli musiqi mədəniyyətini zənginləşdirmişdir.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Ələkbərov Ə. "Hacı Xanməmmədovun tar və simfonik orkestr üçün 2 saylı konserti Hacı Məmmədovun orijinal ifasında "Musiqi dünyası" jurnalı 3/88 2021
2. Səfərova Z.(redaktor)Azərbaycan musiqi tarixi III cild Bakı-Elm 2018
3.Zöhrabov R. "Hacı Xanməmmədovun portretindən cizgilər"-Portretlər "Musiqi dünyası" № 3-4 (17), 2003.

**Rus dilində**

3. Сеидов Т. "Азербайджанская советская фортепианная музыка" (1930-1970) Баку: "Язычы"-1980

***Naxçıvan Dövlət Universiteti***

**Khalıda Mardanova**

## SPECIFIC ASPECTS OF H.KHANMAMMEDOV'S CONCERTS FOR TAR AND SYMPHONY ORCHESTRA I AND II

Azerbaijani musical culture contains a richer heritage with the achievements of composers who came up with unique creative concepts. In this creative heritage, the works written by each composer in various genres are unique. H.Khanmammedov is one of the composers who made invaluable contributions to musical culture with the national face of his work. His works written in the concert genre are important primarily because they provide an opportunity to perfectly express the sound characteristics of folk instruments in collective performance. The presented article emphasizes that the composer has made a "first" in this field. The importance of his first two works for tar and symphony orchestra in the formation of his compositional style is discussed. It is noted that the composer has summarized the innovative aspects of his work in this area, and has created works distinguished by their national content in the genre of classical European music.

Creative use of folk music in the work of Azerbaijani composers is also characteristic of H. Khanmammadov's work. He also highlights this as the main factor of his work in the works he wrote in the concert genre. He solves the problems of the format of his concerts with the basis of national lad-maqam, folk music, and the wonderful intonations of ashug music. By building the themes on the basis of national lad-maqams, H. Khanmammadov emphasizes both the national affiliation of his works and considers the possibilities of using national lad-maqams within the framework of the classical form. The article draws special attention to this and discusses the importance of using folk music, which combines the uniqueness of Azerbaijani music, in the concert genre. It is noted that in the first works written in this genre, H. Khanmamedov reveals the uniqueness of his individual compositional style, draws attention to the essence of his creative concept. It is emphasized that the composer's first two concerts were a stimulus for his creativity, and fostered the renewal of the compositional style and a more perfect expression of the ideological content in the works he would write in this genre in the future.

**Keywords:** *composer, concert, genre, form, national, music*

**Халида Марданова**

## ОСОБЕННОСТИ КОНЦЕРТОВ ДЛЯ ТАРА И СИМФОНИЧЕСКОГО ОРКЕСТРА I И II Г. ХАНМАММЕДОВА

Азербайджанская музыкальная культура обладает богатейшим наследием, включающим достижения композиторов, создавших уникальные творческие концепции. В этом творческом наследии произведения каждого композитора в различных жанрах уникальны. Г. Ханмаммедов — один из композиторов, внесших неоценимый вклад в музыкальную культуру благодаря национальному характеру своего творчества. Его произведения концертного жанра важны прежде всего потому, что позволяют в полной мере выразить звуковые особенности народных инструментов в коллективном исполнении. В представленной статье подчеркивается, что композитор совершил «первый шаг» в этой области. Обсуждается значение его первых двух произведений для тара и симфонического оркестра в формировании его композиторского стиля. Отмечается, что композитор обобщил новаторские аспекты своего творчества в этой области и создал произведения, отличающиеся национальным содержанием, в жанре классической европейской музыки.

Для творчества Г. Ханмамедова характерно также творческое использование народной музыки в произведениях азербайджанских композиторов. Он также выделяет это как главный фактор своего творчества в произведениях концертного жанра. Он решает проблемы формата своих концертов, опираясь на национальный лад-макам, народную музыку и прекрасные интонации ашугской музыки. Выстраивая темы на основе национальных лад-макамов, Г. Ханмамедов подчеркивает как национальную принадлежность своих произведений, так и рассматривает возможности использования национальных лад-макамов в рамках классической формы. В статье особое внимание уделяется этому и обсуждается важность использования народной музыки, сочетающей в себе уникальность азербайджанской музыки, в концертном жанре. Отмечается, что в первых произведениях, написанных в этом жанре, Г. Ханмамедов раскрывает уникальность своего индивидуального композиционного стиля, обращает внимание на сущность своей творческой концепции. Подчеркивается, что первые два концерта композитора стали стимулом для его творчества и способствовали обновлению композиционного стиля и более совершенному выражению идеологического содержания в произведениях, которые он будет писать в этом жанре в будущем.

**Ключевые слова:** *композитор, концерт, жанр, форма, национальный, музыка*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 24.10.2025**
**Son daxilolma tarixi:21.11.2025**